# AZƏRBAYCAN ELM FONDU

**Azərbaycan Elm Fondunun**
**"Qarabağ Azərbaycandır!" məqsədli qrant**
**müsabiqəsinin (AEF-MQM-QA-1-2021-4(41) qalibi**
**olmuş layihənin yerinə yetirilməsi üzrə**

# 1 İLLİK ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **İşğaldan azad olunmuş ərazilərdə davamlı turizmin təşkili istiqamətləri və iqtisadi səmərəliliyinin qiymətləndirilməsi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Əhmədov Rəşad İsmayıl oğlu**
Qrantın məbləği: **190 000**
Layihənin nömrəsi: **AEF-MQM-QA-1-2021-4(41)-8/06/2-M-06**
Müqavilənin imzalanma tarixi: **16 noyabr 2022-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 dekabr 2022-ci il - 01 dekabr 2024-cü il**
*Layihənin 1 il üzrə (rüb) məbləği:*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| 1 | Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş **elmi işlər** |
|---|---|
| | (burada doldurmalı)<br><br>Layihə üzrə aparılan tədqiqatlar və təhlillər daha çox ekoturizm və müalicə sağlamlıq resurslarının öyrənilməsi və inkişaf imkanlarının müəyyən edilməsindən ibarət olmuşdur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ekoturizmin inkişafı üçün zəngin resurslara malikdir. İşğaldan azad olunmuş ərazilərdə ekoturizmin inkişafında təbii-coğrafi xüsusiyyətləri və eko-mədəni irsin əhəmiyyəti daha yüksəkdir. İşğaldan azad olunmuş ərazilər mürəkkəb relyefə malik olmaqla, alçaq, orta və hündür dağlardan ibarətdir. Kiçik Qafqazın cənub-şərq hissəsində yerləşən bu rayona Cəbrayıl, Füzuli, Xocavənd, Ağdam, Xocalı, Tərtər, Şuşa, Xankəndi əraziləri daxildir. Relyefi əsasən, dağlıqdır. Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonunun şimal hissəsini Qarabağ silsiləsinin şimal-şərq ətəkləri və Murovdağ silsiləsinin (Kiçik Qafqazın ən yüksək zirvəsi Gamış dağı (3724 m)) cənub |

yamacları, mərkəzi, qərb və cənub hissələrini Qarabağ silsiləsinin şərq yamacları (Qızqala dağı (2843 m), Qırxqız dağı (2827 m), Böyük Kirs dağı (2725 m)), Xocayurd sisiləsi, şimal-şərq və şərq hissəsini Qarabağ və Mil düzənliklərinin qərb kənarları tutur.

Şuşa rayonun ərazində eyni adlı palto, Daşaltı çökəkliyi, Sarıbaba dağı, Böyük və Kiçik Kirs silsiləsindən ibarətdir. Kəlbəcər rayonunun qərb hissəsində Keyti, Ağduzdağ, Qazanucan, Dəlihəsən Şişdağ, Qaraqaya, Qonur, Pişikli, Məsim, Keçibeli, Qumlu, Vulkanik yaylada Dəlidağ, Ağqaya, Sultanheydər, Teymurcan, Sarımsaqlı, Qaraqaya, Humay, Sarıgüney, Gəlinqaya, Sərçəli, Böyük və Kiçik İşıqlı dağlarından ibarətdir. Eyni zamanda Keçəl dağ və Sarıyer ətrafında bir çox dağ silsiləri yerləşir ki, bu da ərazinin mürəkkəb geoloji quruluşu və relyefi ilə bağlıdır. Tunel və Başlıbel ətrafında isə İldırım, Ağbaba, Şiştəpə, Sarıbulaq, Uzunyal, Qocdaş, Göydağ, Böyük və Kiçik Qalaboynu dağlarından ibarətdir. Rayonun Murovdağ ətrafında Qarabuğur, Buxdux, Ağçınqıllı, Təkəqaya, Çiçəkli, Koroğlu, Hinal və s. dağ silsiləri və zirvələrindən ibarətdir.

Qeyd olunan dağ silsiləri və zirvələ əsasən 2000 m-dən yüksək olmaqla, geomorfoloji və geoloji abidə kimi ekoturizm əhəmiyyəti vardır. Bu dağların yaxınlığında yerləşən geoloji və gemorfoloji abidələr turizm baxımından cəlbedici olmaqla yanaşı, ekoturizm əhəmiyyəti daşıyır. İşğaldan azad olunmuş ərazilərdə ekoturizm məqsədilə istifadə olunmasında ərazinin təbiəti, landşaft abidələri ekoturizm cəlbediciliyində relyefin müxtəlif olması ilə bağlıdır.

Qarabağ iqtisadi rayonun Xocavənd, Ağdərə, Xocalı Füzuli rayonlarında Qarabağ silsiləsinin davamı olan dağlara da rast gəlinir. Bu dağlara misal olaraq Ağburun, Altıntaxta, Boğurxan, Dibətli, Ərgünəş, Gülüncə, Düzağa, Şişdağ, Yeddi qardaş, Kətikdağ, Qırxqız, Fərrux və s. 20-ə yaxın silsilə və zirvələri qeyd etmək olar. Qeyd olunan dağlıq ərazilərdə mağaralar, ekzotik meşə landşaftı, şiş uclu zirvələr, hidroloji abidələr turizm əhəmiyyəti daşıyır. Onu da qeyd edək ki, regionda 10-dan çox mağara, müxtəlif təbiət abidələri də vardır ki, bunlarda ekoturizm əhəmiyyəti kəsb edir.

**Landşaft-iqlim amilləri.** İşğaldan azad olunmuş ərazilərin iqlimi düzənlik, dağətəyi, orta və yüksək dağlıq ərazilərlə fərqlənir. Düzənlik ərazilərdə əsasən qışı mülayim keçən iqlim, yarımsəhra, dağətəyi və orta dağlıq ərazilərdə isə qışı quraq keçən mülayim isti iqlim

hakimdır. İqlim və landşaft şəraitinin əlverişliliyinə görə bu rayonların içərisində hazırda ən çox əhəmiyyət kəsb edən Şəmkir-Füzuli zonası başlayıb Zəngilan rayonuna qədər bütün dağətəyi hissəsini əhatə edir. Buraya quru çöl landşaftı (bəzi yerlərdə dağətəyi meşələri) olan Ağdam-Füzuli və Zəngilan-Qubadlı rayonlarının dağətəyi əraziləri daxildir. Yayı isti keçdiyinə görə 500-600 metr hündürlüyə qədər iqlim profilli turizm obyektlərinin yaradılması imkanları azdır.

Mülayim iqlimli Şuşa, Kəlbəcər, Laçın rayonları özünün zəngin kurort ehtiyatlarına – müxtəlif tərkibli mineral bulaqlarına, dağ kurortları üçün əlverişli iqlim şəraitinə, təmiz və şəffaf havasına, gözəl dağ mənzərələrinə, qəribə relyef formalarına, zəngin bitki örtüyü və heyvanat aləminə görə əvvəlki zonalardan fərqlənir. Qeyd olunan bölgələrdə bir-birindən yamacların makro ekspozisiyasına görə fərqlənən Şuşa – Kəlbəcər və Laçın – Minkənd rayonlarıdır. Atmosfer proseslərinin dəyişmə kəskinliyi az olduğuna və gündüz buludlu havalar səth örtüyünün güclü qızmasının qarşısını aldığına görə temperaturun sutkalararası dəyişkənliyi də kəskin deyildir. Sutkalıq amplitud yay aylarında çox vaxt 5 – 8$^0$C, günəşli günlərdə isə 9-12$^0$C arasında tərənnüm edir. Sutkalararası temperatur fərqi isə ən çox 20$^0$C dən azdır.

Bölgədə ekoturizmin inkişafı üçün ən əlverişli şərait Şuşa-Kəlbəcər, Xocavənd-Füzuli, Laçın-Minkənd-Qubadlı-Göyərçinli, Suqovuşan-Vəngli əraziləri hesab edilir. Ekoturizmin inkişafı üçün dağ – çəmən landşaftı üstünlük təşkil edən Laçın – Minkənd rayonunda daha quru və günəşli keçir. Minkənd ətraflarında yay daha günəşli və az yağmurlu olmasına görə Şuşadan da üstündür.

Rütubətli və soyuq iqlimli yüksək dağ zonasının hündürlüyü 2000 metrdən yuxarı olan ərazini əhatə edir. Yayı çox qısa (2-2,5 ay), qışı isə qarlı və şaxtalı olub və 5-6 ay davam edir. Soyuq iqlimli yüksək dağlıq zona Qarabağda 2000 m hündürlükdən yuxarıda yerləşən yaylaqları əhatə edir. Komfort və sərin hava şəraiti ilə bərabər zona egzotik mənzərəli alp və subalp çəmənlikləri, sıra dağları, sərin bulaqları ilə tanınır.

Qeyd olunan bölgələrin təhlilindən aydın olur ki, mikroiqlim, balneoloji resurslar, landşaft amili müalicə-sağlamlıq turizminin təşkilində əsas baza olaraq qalır. Bu bölgələrin

çox illik temperaturların təhlili göstərir ki, may ayında 14,7-17,2$^0$C təşkil edir ki, bu da komfort şəraitinə yaxındır. Eyni zamanda may ayının ikinci on günlüyündən temperaturun bəzi günlər 20$^0$C-dən çox olması və buludsuz hava şəraiti komfort hədlərin yaranmasına səbəb olur.

Regionun turizm-rekreasiya zonalarının orta və yüksək dağlıq ərazilərində qış turizminin təşkilinə mane olan güclü küləklərin olmaması, mütləq minimum temperatur şəraitinin davamlı müşahidə edilməməsi də mövcud potensialdan daha səmərəli istifadə olunmasına imkan verir. Qış aylarında temperatur dəyişmələri dağ-xizək və sağlamlıq turizminin təşkili üçün də əlverişlidir.

Regionda meşə landşaftı əsasən dağətəyi və orta dağlıq ərazilərdə yayılmışdır. Meşələrin tərkibində endemik ağac və kol növlərinə rast gəlinir. Laçın rayonunda qırmız palıd və ardıç meşələri, Zəngilanda şərq çinarı, Kəlbəcərdə fısdıq və görüş meşələri, Xocavənd rayonunda palıd və vələs meşələri, Şuşa rayonunda Topxana meşələrinin tərkibində olan yaşı yüz ilə çatan palıd ağacları, həmçinin Tərtər rayonun Şuqovuşan kəndində olan meşəliklər ekoturizm əhəmiyyətinə malikdir. Eyni zamanda arid meşə landşaftından ibarət Qubadlı, Zəngilan meşələrində yayılan araz və gürcü palıdı, Kəlbəcərin Ağdaban və Zülfüqarlı kəndlərinin ətrafında olan şərq palıdı və ayı fındığı meşələrin qeyd etmək olar.

Ümumilikdə işğaldan azad olunmuş ərazilərin meşə fondu 22-23% təşkil edir ki, bununda əsas hissəsi Xocavənd, Şuşa, Kəlbəcər rayonlarında cəmlənmişdir. Xüsusilə, Xocavənd və Şuşa rayonlarında meşə resursları turizm baxımından daha çox cəlbedicidir ki, bu da meşə landşaftından ekoturizm məqsədilə geniş istifadə olunmasına imkan verir.

Çaylar mənbələrini hündür dağlıq ərazilərdən götürməklə dərin kanyonvari dərələr, geniş çay yataqları, şəlalələri ilə seçilir. Çaylar əsasən yağış, qar və yeraltı sularla qidalanır və yazda və payızda gursulu olur. Bunlardan əsas Tərtər və Həkəri çayları vulkanik yayladan başlayır.

Tərtər çayı- öz mənbəyini Kəlbəcər rayonun Böyük İşıqlı dağının zirvəsindən götürür. Ağdərə, Tərtər və Bərdə rayonlarının ərazisi ilə axaraq Kür çayına tökülür. Tərtər çayının qolları Tutqun, Lev və Ayrım çaylarıdır. Mənbəyi ilə mənsəbi arasındakı hündürlük

fərqi 3117 m-dir. Çayın üzərində Sərsəng, Suqovuşan su anbarları tikilmişdir. Tərtər çayın yuxarı axarında dərinliyi 1000 m-ə çatan 3 kanyonvari dərə, Lev və Tutqun çaylarında şəlalələr, Tutqun çayının ətrafında 20-dan çox termal bulaqlara rast gəlinir. Həmçinin çayın ətrafında ekzotik meşə landşaftı və təbiət abidələrinin olması onun ekoturizm əhəmiyyətini artırmış olur. Çayın yuxarı axarı və qollarında raftinq üçün əlverişli şərait vardır. Çay qızıl balıqların tilovla tutulması üçün əlverişli imkanlar vardır ki, bu da onun ekoturizm əhəmiyyətin artırır.

Həkəri çayı mənbəyini Vulkanik yaylada olan Dəlidağdan götürür. Kəlbəcər, Laçın, Qubadlı rayonlarının ərazisindən keçməklə Bərgüşad (Bazar çay), Minkənd və digər 10-a yaxın xirda çay qolları vardır. Həkəri çayında dərin kanyonlar, sıldırım qayalıqlar, şəlalələr və təbiət abidələrinə rast gəlinir. Həkəri çayında qiymətli çay farelləri, kütüm və s. balıqlar bu çayda kürü tökürlər. Çayda raftiq, balıqçılıq digər ekoturizm imkanlarından istifadə etmək olar.

Xaçınçay-öz mənbəyini Kəlbəcər rayonundan götürür Ağdam, Tərtər və Bərdə rayonlarının ərazisi ilə axaraq Kür çayına tökülür. Çayın orta axarlarında geniş meşə landşaftına rast gəlinir. Çayın üzərində olan eyni adlı su anbarı suvarma məqsədləri daşısa da, ekoturizm əhəmiyyətidə vardır.

Köndələnçay-öz mənbəyini Şuşa rayonundan götürür. Xocavənd və Füzuli rayonlarının ərazisi ilə axaraq Araz çayına tökülür. Köndələn çayı üzərində olan eyni adlı iki su anbarı bərpa edildikdən sonra turizm məqsədilə istifadə etmək mümkün olacaqdır. Çayın yuxarı və orta axarlarında kanyonvari dərələrin, aşağı axarında çay gətirmələrinin olması da, ekoturizm əhəmiyyətinə malikdir. Çayın orta axarı raftinq üçün əlverişli hesab edilir.

Qarqar çayı-öz mənbəyini Şuşa rayonundan 2080 m hündürlükdən götürərək Xankəndi, Xocalı, Ağdam və Ağcabədi rayonlarının ərazisi ilə axır. Qarqar çayı Zarıslı və Xəlfəli çaylarının birləşməsindən əmələ gəlir. Əsas qolları – Ballıca, Bədərə, Dağdağan və sairdir. Çayın yuxarı və orta axarı ekzotik meşə landşaftı ilə əhatə olunub. Çayın üzərində olan Ağdamkənd su anbarı gələcəkdə Ağdam rayonunda ekoturizmin inkişafında xüsusi rolu olacaqdır. Eyni zamanda, Gülablı kəndinin ətrafındakı müşahidə məntəqəsindən çayın

kanyonların görmək mümkündür.

Quruçay-Araz çayının sol qoludur. Xocavənd, Füzuli rayonlarının ərazisindən keçir. Başlanğıcını Kiçik Qafqazın cənub-şərq ətəyindən götürür. Çay orta axarında olan kanyon dərələri, sıldırım yamacları ilə seçilir ki, bunlarda ekoturizm əhəmiyyətinə malikdir.

Qarabağ və ətraf rayonlarda ekoturizm əhəmiyyəti kəsb edən göllərə rast gəlinir ki, bunlarında əsas hissəsi vulkanik mənşələrdir. Göllər əsasən Kəlbəcər və Laçın rayonlarında yayılmışdır. Kəlbəcər rayonunda Böyük Alagöl, Kiçik Alagöl, Qanlıgöl, Dibgöl, Cilligöl, Dikpilləkən göl, Əyrigöl, Naxırgöl, Böyükgöl kimi bir çox gölləri təbiət abidəsi olaraq səciyyələndirmək olar. Laçın rayonunda isə Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragölü qeyd etmək olar. Bu göllər qış aylarında donurlar. Əsas qida mənbəyin yeraltı və çay suları təşkil edir. Ətrafı dağ çəmən landşaftı ilə əhatələnir.

Yazda göllərin ətrafı çox mənzərəli olmaqla yanaşı dağ çəmənliyində olan çiçəklərlə əhatə olunur. Onu da qeyd edək ki, göllərin əksəriyyəti 2500 m-dən yuxarıda yerləşir ki, bu da onun ekoturizm imkanların artırır. Göllərin bəzilərində qızıl balıqlara rast gəlinir. Qarabağ və ətraf ərazilərdə olan göllərin turizm baxımında əhəmiyyətinə açıq hava turizm fəaliyyətlərinin müxtəlif növlərinin təşkili imkanlarının olmasıdır. Macəra, su idmanı, balıqçılıq və digər ekoturizm imkanlarına malikdir.

Bölgədə təbii irsin müxtəlifliyi onun cəlbedici amillərindən sayılır ki, bu da ekoturizm məqsədilə gələnlərin sayının artmasına, yeni turizm destinasiyalarının formalaşmasına şərait yaradır. Ölkəmizdə Milli Parklara gələn turistlərin dinamikasının təhlili göstərir ki, son illərdə təbiət ərazilərinə üstünlük verənlərin sayının artması müşahidə edilir. Həmçinin ekoturizm marşrutlarının planlaşdırılmasında qeyd olunan təbii irsin istifadə olunması mümkündür. Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərin turizm potensialı bu regionun biznes proseslərinin sürətləndirilməsinə yeni imkanlar açacaqdır. Burada gözəl və füsunkar təbiət guşələri, mineral müalicəvi içməli sular, turizm-rekreasiya potensialı vardır. Kəlbəcər və Zəngilan termal su mənbələri, Şuşada balneoloji mərkəzlər, kanat yolları potensialı vardır, Xudafərin körpüsü, Azıx mağarası yeni turist marşrutları üçün cəlbedicidir. Qarabağda xalça turlarının təşkil edilməsi böyük maraq doğurar.

Qarabağda və Şərqi Zəngəzurda mədəniyyət, təbiət, sağlamlıq, dağ-xizək turizmi istiqamətləri üzrə zəngin resurslar var. Belə ki, təbiət turizmi üzrə piyada yürüşləri, yamac paraşütü, dağ velosipedi, dağ çaylarında qayıqçılıq, balıq ovu kimi ekoloji turizm məhsulları təklif edilə bilər. Bu mənada Şuşa, Laçın, Kəlbəcər təbiət turizm növlərinin inkişafı baxımından nisbətən böyük potensiala malikdir. Sağlamlıq turizmi üzrə termal bulaqlar, isti vannalar, iqlim kurortları turistlərə turizm məhsulları kimi təklif edilə bilər. Sağlamlıq turizm istiqaməti üzrə nisbətən Kəlbəcər, Şuşanın böyük potensialı var. Dağ-xizək turizm istiqaməti üzrə müxtəlif dağ-xizək xidmətləri təqdim edilə bilər. Bu istiqamətdə Kəlbəcər və Laçının nisbətən böyük potensialı mövcuddur. Mədəni turizm istiqaməti üzrə Alban mədəni irsi, Qarabağ xanlığının irsi, Qarabağ xalçaları, qeyri-maddi mədəni irs nümunəsi olan muğam musiqisi turizm məhsulu kimi təklif oluna bilər. Bu mənada Şuşa-Ağdam, Xocavənd, Kəlbəcərin rayonlarının daha çox imkanları vardır.

Laçın rayonu təbiət yasaqlığında qırmızı palıd meşələri, mineral sular, bir neçə min il yaşı olan arxeoloji abidələrin mövcudluğu qış turizm mərkəzinin yaradılması üzərində ideyaları zənginləşdirir.

Kəlbəcərdə çəmənliklərdə piyada yürüşləri, Qarabağ yaylağında və Qarabağ silsiləsində dağ yürüşləri, Dəlidağın yamaclarındakı İstisuda müalicə və istirahət, Qafqaz Albaniyası memarlığının incisi Gəncəsər monastırına yürüşlər və s. təşkil edilməsi ekoturizm üçün əhəmiyyətlidir.

Təbiət ərazilərimizdən Bəsitçay və Qaragöl dövlət təbiət qoruqları, həmçinin Laçın, Daşaltı və Arazboyu yasaqlıqlarda biomüxtəlifliklər ekoturizmin inkişafını şərtləndirmiş olur. Zəngilan rayonunun ərazisində adı Azərbaycanın "Qırmızı Kitabı"na yazılmış Şərq çinarlarını –nadir təbiət incilərini qorumaq məqsədilə 107 hektarlıq sahədə yaradılan Bəsitçay Dövlət Təbiət Qoruğu, Laçın rayonu ərazisində yerləşən Qaragöl Dövlət Təbiət Qoruğunun bitki örtüyü, Laçın Dövlət Təbiət Yasaqlığındakı məməlilər (cüyür, qayakeçisi, çöl donuzu) və quşlar (turac, kəklik) təbii irs resurslarıdır. Qaragöl Dövlət Təbiət Qoruğunda yerləşən gölə heç bir yerdən su axınının olmamasına və suyun çox təmiz və şəfalı olmasına görə xalq bu gölə müqəddəs ibadət yeri kimi baxırdı. Laçın Dövlət Yasaqlığının yaradılmasında məqsəd

buradakı heyvan və quşları qoruyub saxlamaq və artırmaq olmuşdur. Yasaqlığın ən yüksək zirvəsi Qırxqız zirvəsidir. Yasaqlığın ərazisində yerləşən Hacısamlı meşəsində dünyada ən qiymətli bitki hesab olunan qırmızı palıd ağacı (qızıl palıd) vardır.

Şuşa şəhərinin ətrafında yaradılmış Daşaltı Dövlət Təbiət Yasaqlığı isə bir vaxtlar Azərbaycanın ən səfalı və füsunkar təbiəti, tarixi abidələri ilə tanınıbdır. Qoruğun ərazisinə Topxana meşəsi, Kirs dağının ərazisi, Cıdır düzü daxildir. Eyni zamanda ərazidə triton əsrinə aid "Xan mağarası" təbiət abidəsi vardır. Burada zəngin meşə, kol və ot bitkilərini qorumaq əvəzinə, təbii sərvətlərə dərin yaralar vurulmuş eləcə də Tuqay meşələrinin qorunması və bərpası məqsədi daşıyan Arazboyu Dövlət Təbiət Yasaqlığı da, təəssüf ki, erməni faşizminin qurbanı olubdur.

İşğaldan azad olunan ərazilərimizdə biomüxtəlifliyin mühafizəsi üçün xüsusi mühafizə olunan təbiət ərazilərimizin (qoruq və yasaqlıqlar) bərpası, həmçinin ekoturizmin inkişafı baxımından yeni kateqoriyalı milli parkın (və ya parkların) yaradılması vacibdir.

Bölgədə ekoturizm resurslarının təhlilindən aydın olur ki, ərazinin təbiət abidələri, ekzotik meşə landşaftı turizmin inkişafı üçün əlverişli şərit yaradır. Bu baxımdan ekoturizm resurslarının ümumi təhlilindən aydın olur ki, özünəməxsus ağac və kol növlərinin yayılması, mağaralar, yastı paltolar, termal su mənbələri, geoloji və geomorfoloji abidələr ekoturizmin inkişafında baza rolu oynaya bilər. Təbiət abidələrini ekoturizm baxımından təhlilini aşağıdakı kimi qruplaşdırmaq olar:

-Ekoturizm əhəmiyyəti kəsb edən mağaralar. Spelo turizm inkişafı üçün Qarabağ və Şərqi Zəngəzur bölgəsində 20-ə yaxın böyük və kiçik ölçülü mağaralara rast gəlinir. Bölgədə əsas mağaralar Şuşa, Xocavənd, Kəlbəcər və Laçın rayonlarında yayılmışdır. Əsas mağaralara Xocavənd rayonunda Azıx, Tağlar, Şuşa rayonunda Daşaltı, Şuşa mağarası, Kəlbəcərdə Zar, Başıbel, Tərtər çayı sahilində 8 mağara, Laçın rayonunda Sadınlar, Bayqara, Hoçaz, Qaranlıqkaha mağaralarını qeyd etmək olar.

Zar mağarası Kəlbəcər rayonunda eyni adlı kənddə Şərqi Göycə silsiləsində yerləşir. Mağarada obsidiandan hazırlanmış 152 əşya aşkar edilmişdir. Mağarada olan arxeloji tapıntılar üst paleolit dövrünə aid edilir. Zar mağarasının əmək alətləri tipoloji və texnoloji

səviyyəsinə, qəlpələrin morfologiyasına görə Mustye mədəniyyətinin ikinci mərhələsini və Mustyedən Üst Paleolitə keçidi əks etdirir. Mağaranın dərinliyi 5-8 m, ovdan hisəsində hündürlüyü 1,8 m-dir.

Tağlar mağarası Yuxarı tağlar kəndində Azix mağarasından 3 km qərbdə yerləşir. Mağarada 8 mindən artıq daş məmulat, 600 mindən çox ovlanmış heyvan sümüklərinə rast gəlinir. Tağlar düşərgəsində aparılan arxeoloji tədqiqatlar respublikamızın ərazisində ustye mədəniyyətinin özünə məxsus xüsusiyyətləri olduğunu göstərdi. Mağarının ətrafı ekzotik meşə landşaftı ilə örtülmüşdür ki, bu da onun turizm əhəmiyyətin artırır.

Azıx mağarası paleolit dövrünün ən mənzərəli və şəfalı ərazi olan Tuğ çökəkliyi və Quruçayın sol sahilində yerləşir. Mağaranın dərinliyi bəzi yerlərdə 120 m-ə çatır ki, onunda əsas hissəsi keçilə bilən etaplı hissələrdən ibarətdir. Burda 6 təbəqə mövcuddur ki, bunlarda xüsusi keçidlərlə təmin olunan mərkəzlərdən ibarətdir. Mağarada çənə sümüyündən başqa alətlər, fauna və ocaq qalıqları aşkar edilmişdir. Mağaranın ətrafı ekzotik meşə landşaftı ilə əhatə olunmuşdur ki, bu da onun turizm əhəmiyyətin artırmış olur.

Şuşa mağara düşərgəsi daş dövrünə aid olan Daşaltı çayının dərəsində yerləşir. Mağara bir neçə nəfərin sığa biləcəyi xüsusi kahadan ibarətdir. Xan mağarası kimi adlandırılan bu mağara Daşaltından Şuşaya qalxan yoldan 1400 m yüksəklikdə yerləşir. Kənardan aydın müşahidə olunan bu mağara speloturizmin təşkili üçün əlverişlidir.

Daşaltı mağarası eyni adlı çayın orta axarında, təbii əhəngdaşlı və obsiadianlı süxurlardan yaranmışdır. Həmçinin vulkan püskürməsi zamanı ayrılan lavadan yarandığı qeyd olunur. Burda müxtəlif ev və vəhşi heyvanların qalıqlarına rast gəlinir. Mağaradan süzülən sular ekzotik çətirli şəlalə yaradır. Mağaranın ətrafında ekzotik landşaftın olması, çətirli şəlaləsi onun ekoturizm baxımından əhəmiyyətin artırır.

Qeyd olunan mağaralar bölgədə speloturizmin inkişafı üçün əlverişli şərait yaradır. Gələcəkdə ekoturizmin tərkibində speloturizm marşrutunun təşkili mümkündür ki, bu da Xocavənd, Şuşa, Kəlbəcər və Laçın rayonlarında olan 20-ə yaxın mağaraları əhatə edə bilər.

Region ərazinin 22-25% meşələr əhatə edir ki, onunda əsas hissəsi, Xocavənd, Şuşa, Kəlbəcər, Tərtər, Xocalı və Laçın rayonlarının payına düşür. Meşə landşaftının tərkibində

nadir bitki növlərinin olması onlardan ekoturizm məqsədilə istifadə olunmasına imkan verir. Bunlara misal olaraq Laçın rayonun qırmızı palıd ağaclarından ibarət olan meşələrə Laçın yasaqlığı və Haçışamlı meşələrində rast gəlinir. Ermənilər tərəfindən vandalizmə məruz qalsa da, hazırda həmin meşələrin az bir hissəsi talalar şəkilində özünü qoruyub saxlamışdır. Bu meşəliklər ekoturizm baxımında əlverişli olmaqla yanaşı, turizm marşrutlarına salına bilər.

Kəlbəcər rayonun ayı fındığı meşələri Zülfüqarlı, Ağdaban və Tutqun çayın dərəsində geniş yayılmışdır. Həmçinin bu meşələrin tərkibində göyrüş, gökə gərməşov, yaşı bir neçə yüz ilə çatan şərq palıd ağaclarına rast gəlinir. Qeyd olunan meşəliklər erməni vandalizminə məruz qalsa da, özünü bərpanı nəzərə almaqla ekoturizm məqsədilə istifadə etmək olar.

Şuşa rayonun Topxana meşə palıd, vələs ağacları ilə zəngindir. Bir neçə dəfə erməni vandalizminə məruz qalsa da, hazırda öz arealı daxilində genişləndirilməsi mümkündür. ETSN tərəfindən Topxana meşələrinə 100 kq palıd qozası səpilmiş, yeni fidanlar əkilmişdir ki, bu da meşələrin bərpasına və ekoturizm baxımından istifadə olunmasına şərait yaradacaqdır.

Qubadlı rayonunda arid meşə landşaftına aid olan Araz, Gürcü palıdı, arıç ağacı Qubadlı yasaqlığında yayılmaqla yanaşı, rayonun digər ərazilərində də rast gəlinir. Arid meşə landşaftı endemik bitkilərdən ibarətdir ki, bununda ekoturizm baxımından istifadəsini artırmış olur.

Bəsitçay qoruğunun sahəsin genişləndirməklə yeni şərq çinarı və palıd, vələs toxumları səpilmiş, yerli iqlim şəraitinə uyğun ağaclar əkilmişdir. Onu da qeyd edək ki, Bəsitçay qoruğunda eyni adlı çaya qızıl balıq süfrələri tökülmüşdür ki, bu da onun artırılması məqsədilə geniş arealda yayılmasına imkan verəcəkdir. Bəsitçay qoruğunda olan şərq çinarı meşələri erməni vandalizminin təsirinə məruz qalaraq mövcud sahəsi iki dəfə azalmışdır. Hazırda qoruğun bərpası proseslərinə start verilmiş və elmi tədqiqat işləri aparılır. Qoruğun ərazisində şərq çinarı ilə yanaşı, meşə fauna flora növləridə yayılmışdır ki, bu da onun rekreasiya-turizm əhəmiyyətin artır.

Bölgədə eko-sağlamlıq turizminin inkişafında müalicəvi bulaqlar, fitobitkilərin xüsusi rolu vardır. Bölgədə 400-dən çox müalicəvi su mənbələri vardır ki, bununda əsas

hissəsi Kəlbəcər, Laçın, Şuşa rayonunda cəmlənmişdir. Bunlardan debiti və ekzotikliyi ilə seçilən məşhur müalicəvi sularına Kəlbəcər rayonunda İstisu, Bağırsaq, Tutqun, Zülfüqarlı kəndində olan termal mənbələr, Laçın rayonunda Minkənd, Əhəmdli su, 20-dən çox ılıq və hidrotermal su mənbələrin, Şuşa rayonunda Turşsu, Şırlan, Nurəddin su, Daşaltı bulaqların qeyd etmək olar. Qeyd olunan mənbələr müalicəvi xüsusiyyətləri ilə yanaşı, ətrafında olan ekzotik landşaftı və təbiət abidələrinin olması turizm baxımından əhəmiyyətin artırır. Hazırda qeyd olunan müalicəvi suların qiymətləndirilməsi aparılır ki, bu da gələcəkdə eko-sağlamlıq klasterlərinin yaranmasına imkan verəcəkdir.

Bölgənin bitki örtüyünün zənginliyi, müalicəvi bitkilər və giləmeyvələrin çoxluğu, gələcəkdə arıçılıq təsərrüfatlarının yayılması fitomüalicələrin genişlənməsinə, ekoturizm imkanlarının artmasına şərait yaradacaqdır. Bölgədə 500-dən bitki növünə rast gəlinir ki, bunlardan fito müalicə əhəmiyyəti kəsb edən 50-ə yaxın bitki və giləmeyvə növünə rast gəlinir. Qafqazda yayılan flora növlərinin 85% işğaldan azad olunmuş ərazilərdə rast gəlinir. Bitkilərin əksəriyyətinin müalicəvi əhəmiyyətli olması eko-sağlamlıq turizminin inkişafı üçün perspektivli olduğun qeyd etmək olar. Bölgənin bütün dağlıq və dağətəyi ərazilərində zəngin fito bitkilərin olması gələcəkdə onun qablaşdırılması, fitoçayların istehsalına imkan verir.

İşğaldan azad olunmuş ərazilərin memarlıq irsidə ekoloji turizm baxımından əhəmiyyət kəsb edir. Şuşa şəhərinin mədəni irs nümunələri, memarlığı eko-mədəni turizmin inkişafında əvəzsiz rola malikdir. Ağdam rayonunda Şahbulaq qalası və ətrafındakı ekzotik meşə landşaftı, Cəbrayıl rayonunda tarixi Xudafərin körpüləri, XVIII əsrin II yarısında Qarabağda Bayat, Şahbulaq (Tərnəküt), Pənahabad (Şuşa) qalaları salınmış və həmin qalalarda bazar, karvansaray, məscid, hamam, və s. inşa edilmişdir. Həmçinin Ağdamda imarətlər Pənah xana və nəslinə aid kümbəzlər tikilmişdir.

Qarabağda yerləşən tarixi kilsələr eyni zamanda e.ə. III əsrdən eramızın VII əsrinə kimi indiki Azərbaycan ərazisində mövcud olmuş Qafqaz Albaniyası dövrünün yadigarıdır. Laçın rayonunda Ağoğlan monastırı, Xudavəng və gəncəsər monastırları, Xocavənd rayonunda tarixi IV əsrə dayanan Amaras monastırı Tuğ, Hadrut və digəır yaşayış məntəqələrində olan alban abidələri eko-mədəni turizm baxımından istifadə olunmasına

imkan verir. Qeyd olunan mədəni irsin ekzotik meşə landşaftı ilə əhatələnməsi, təbiət abidələrinin mövcudluğu ekoturizmin təşkili üçün əlverişli şərait yaradır.

Bölgənin zəngin qeyri-maddi irs nümunələrindən Qarabağ xalçaları, Qarabağ atları, Qarabağ musiqisi, Qarabağ milli mətbəxtinin turizm əhəmiyyəti vardır. Bölgədə hadisə turizminin təşkilində qeyd olunan etno-mədəni irs nümunələrindən geniş istifadə olunması mümkündür. Artıq Şuşa şəhərində Xarıbülbül festivalı, musiqi və poyeziya festivalının keçirilməsi, planlaşdırılan kulinariya festivalı turizmin inkişafına təkan verəcəkdir.

Qarabağ atlarından ibarət çıdır festivalının keçirilməsi və dünyanın məhşur atla məşğul olan klubların bu yarışlara dəvət olunması onun turizm imkanlarını artımış olardı. Eyni zamanda, belə yarışların beynəlxalq əhəmiyyətli olması turistlərin maraqların cəlb etmiş olardı.

Qarabağ xalçaçılıq məktəbinin nümunələrin əks etdirən beynəlxalq tədbirlərin keçirilməsi beynəlxalq turizmin inkişafına təkan vermiş olardı. Xalçaçılıq məktəbinin Şuşa şəhərində bərpası, muzeyin təşkili, sərgi-satış mərkəzinin təşkili turistlərin cəlb olunmasına imkan verərdi.

Bu ərazilərdə ekoturizm fəaliyyətləri həyata keçirilərkən iki mühüm meyardan biri olan "təbii mühitin davamlılığı" prinsipinə ciddi əməl edilməlidir. Təbiət turlarında seçilən marşrut, bu turlar üçün hazırlanmış ekspert bələdçi və riayət olunacaq qaydalar çox önəmlidir (www.novitas.com). Həm tur təşkilatçılarının, həm də iştirakçıların riayət etməli olduğu tələbləri aşağıdakı kimi ümumiləşdirmək olar:

- Milli Park, Təbiəti Mühafizə Ərazisi və s. mühafizə olunan ərazilərdə aidiyyəti nazirlik və qurumlar tərəfindən müəyyən edilmiş qaydalara ciddi riayət etmək;
- Gəzilən və ya düşərgə qurulduğu yerlərdə müəyyən edilmiş ekskursiya marşrutlarından kənara çıxmamaq, təcrübəli təbiət bələdçisinin xəbərdarlığına və göstərişlərinə əməl etmək;
- Zyarət edilən ərazilərdə flora və faunaya zərər verməyən üsulla fəaliyyət göstərmək;
- Səfər zamanı ətraf mühitə bərk tullantı atmamaq;
- Xüsusilə nəsli kəsilməkdə olan heyvanların yaşadığı ərazilərdə səs-küy və buna bənzər

çirklənmələr yaratmamaq;

- Prinsiplərə riayət etmək və səlahiyyətli rəsmi qurumlar tərəfindən təbiət və dağ bələdçiliyi sertifikatları təqdim olunan bələdçilərin xidmətindən istifadə etmək;

Əgər bu cür bələdçilər mövcud deyilsə, ekoturistlər təşkilatlar tərəfindən xüsusi təlim keçmiş təcrübəli bələdçilərdən və təbiət turları üzrə mütəxəssis olan insanların xidmətindən istifadə etməlidirlər.

Ekoturizmin ikinci əsas meyarı olan "yerli mədəniyyətlərin davamlılığı və yerli əhalinin bu turizm fəaliyyətindən faydalanması" prinsipi iki mühüm prinsipi özündə birləşdirir. Birinci; ekoturizm fəaliyyətinin həyata keçirildiyi bölgənin əhalisinin bu fəaliyyətdən pay almasıdır. Bunun üçün ilk növbədə ekoturizm fəaliyyətlərində iri beynəlxalq turoperatorlar deyil, ölkə daxilində və hətta regionda kiçik agentliklərin iştirak etməsi təmin edilməlidir. Daha sonra, bu agentliklərin öz tur proqramlarını hazırlayarkən bölgədən gələn tur tələblərini mümkün qədər yerinə yetirmələrini təmin etməklə bu məqsəd reallaşacaq. İkincisi; turizm vasitəsilə bir bölgəyə töhfə verərkən maddi və mənəvi mədəniyyət elementləri korlanmamalıdır. Orijinal mədəniyyətlərin və mənəvi dəyərlərin toxunulmaz olduğu bölgələrdə turist qrupları bu dəyərlərə hörmətlə yanaşmalıdırlar. Maddi mədəniyyət abidələrinin qorunub saxlanılması ilə yanaşı, yerli fakturaya uyğun gəlməyən müasir memarlıq məhsulları əvəzinə mühafizə altında olan orijinal binalarda xidmət göstərən yaşayış müəssisələrinə üstünlük verilməlidir.

Ekoturizmdə ziyarətçilərin bölgənin ekosistemi, yerli mədəniyyətlər və davamlılıq haqqında məlumatlandırılması böyük əhəmiyyət kəsb edir. Yerli əhali ekoturizmdən ən çox təsirlənəcək və ən çox itirəcək seqment olduğundan, onların bölgələrində inkişaf edən turizmin təsirləri barədə əvvəlcədən məlumatlandırılması vacibdir. Ekoturizm fəaliyyətlərini istiqamətləndirəcək prinsipləri aşağıdakı kimi sıralamaq olar:

- Turist fəaliyyətləri resursları azaltmamalıdır;
- Ziyarətçilər öz təhsil təcrübələrini vasitəçilər olmadan təqdim etməlidirlər;
- Bütün maraqlı tərəflər (ev sahibi icma, hökumət, qeyri-hökumət təşkilatları, sənaye və turistlər) cəlb olunmalıdır;

- Təbii ehtiyatların real dəyərlərinə hörmət edilməlidir;
- Yerli ərazilərdə mövcud resurslar həddən artıq yüklənməməlidir;
- Maraqlı tərəflər arasında tərəfdaşlığın inkişafını təşviq etmək lazımdır;
- Gəlirlər sənayenin və yerli əhalinin elmi və ya mədəni ehtiyatlarının qorunmasını təmin etməlidir;

Bu faydalar uzunmüddətli olmalıdır.

Xülasə, ekoturizm yerli miqyasda ən faydalıdır və reallaşacağı təqdirdə böyük imkanlar gətirə biləcək potensialdadır. Bölgənin bitki örtüyünün zənginliyi, müalicəvi bitkilər və giləmeyvələrin çoxluğu, gələcəkdə arıcılıq təsərrüfatlarının yayılması fitomüalicələrin genişlənməsinə, ekoturizm imkanlarının artmasına şərait yaradacaqdır. Bölgədə 500-dən çox bitki növünə rast gəlinir ki, bunlardan fito müalicə əhəmiyyəti kəsb edən 50-ə yaxın bitki və giləmeyvə növüdür. Qafqazda yayılan flora növlərinin 85%-i işğaldan azad olunmuş ərazilərdə rast gəlinir. Bitkilərin əksəriyyətinin müalicəvi əhəmiyyətli olması eko-sağlamlıq turizminin inkişafı üçün perspektivli olduğun qeyd etmək olar. Bölgənin bütün dağlıq və dağətəyi ərazilərində zəngin fito bitkilərin olması gələcəkdə onun qablaşdırılması, fitoçayların istehsalına imkan verir.

-Ekoturizm əhəmiyyəti kəsb edən mağaralar. Spelo turizm inkişafı üçün Qarabağ və Şərqi Zəngəzur bölgəsində 20-ə yaxın böyük və kiçik ölçülü mağaralara rast gəlinir. Bölgədə əsas mağaralar Şuşa, Xocavənd, Kəlbəcər və Laçın rayonlarında yayılmışdır. Əsas mağaralara Xocavənd rayonunda Azıx, Tağlar, Şuşa rayonunda Daşaltı, Şuşa mağarası, Kəlbəcərdə Zar, Başıbel, Tərtər çayı sahilində 8 mağara, Laçın rayonunda Sadınlar, Bayqara, Hoçaz, Qaralıqkaha mağaraların qeyd etmək olar. Zar mağarası Kəlbəcər rayonunda eyni adlı kənddə Şərqi Göycə silsiləsində yerləşir. Mağarada olan arxeloji tapıntılar üst paleolit dövrünə aid edilir.

Tağlar mağarası Yuxarı Tağlar kəndində Azıx mağarasından 3 km qərbdə yerləşir. Mağarada 8 mindən artıq daş məmulat, 600 mindən çox ovlanmış heyvan sümüklərinə rast gəlinir. Mağaranın ətrafı ekzotik meşə landşaftı ilə örtülmüşdür ki, bu da onun turizm əhəmiyyətin artırır. Azıx mağarası paleolit dövrünün ən mənzərəli və şəfalı ərazi olan Tuğ

çökəkliyi və Quruçayın sol sahilində yerləşir. Mağaranın dərinliyi bəzi yerlərdə 120 m-ə çatır ki, onunda əsas hissəsi keçilə bilən etaplı hissələrdən ibarətdir. Burda 6 təbəqə mövcuddur ki, bunlarda xüsusi keçidlərlə təmin olunan mərkəzlərdən ibarətdir. Mağarada çənə sümüyündən başqa alətlər, fauna və ocaq qalıqları aşkar edilmişdir. Mağaranın ətrafı egzotik meşə landşaftı ilə əhatə olunmuşdur ki, bu da onun turizm əhəmiyyətin artırmış olur.

Şuşa mağara düşərgəsi daş dövrünə aid olan Daşaltı çayının dərəsində yerləşir. Mağara bir neçə nəfərin sığa biləcəyi xüsusi kahadan ibarətdir. Xan mağarası kimi adlandırılan bu mağara Daşaltından Şuşaya qalxan yoldan 1400 m yüksəklikdə yerləşir. Kənardan aydın müşahidə olunan bu mağara speloturizmin təşkili üçün əlverişlidir.

Daşaltı mağarası eyni adlı çayın orta axarında, təbii əhəngdaşlı və obsiadianlı süxurlardan yaranmışdır. Həmçinin vulkan püskürməsi zamanı ayrılan lavadan yarandığı qeyd olunur. Burda müxtəlif ev və vəşi heyvanların qalıqlarına rast gəlinir. Mağaradan süzülən sular egzotik çətirli şəlalə yaradır. Mağaranın ətrafında ekzotik landşaftın olması, çətirli şəlaləsi onun ekoturizm baxımından əhəmiyyətin artırır. Gələcəkdə ekoturizmin tərkibində speloturizm marşrutunun təşkili mümkündür ki, bu da Xocavənd, Şuşa, Kəlbəcər və Laçın rayonlarında olan 20-ə yaxın mağaraları əhatə edə bilər.

-Mədəni irsin ekoturizm məhsuluna çevrilməsi imkanları. Bölgədə ekoturizmin inkişafına təkan verən amillərdən biri də mədəni irsin turizm məhsuluna çevrilməsi imkanları ilə bağlıdır. Regionun arxeoloji irs nümunələrinə qədim yaşayış yerləri, şəhər qalıqları, əhali tərəfindən əsasən “təpə” areoloji nümunələr aiddir. Bunlara misal olaraq Ağdam rayonunda bir çox qədim yaşayış yerlərin və arxeoloji qalıqları qeyd etmək olar. Kərimlitəpə (Eyvazlı kəndi), Namazlıtəpə yaşayış yeri (Kəbləhüseynli kəndi), Şomulutəpə (Miraşelli kəndi), Yolkəsəntəpə (Alibəyli kəndi), Xocavənd rayonunda Azıx və Tağlar mağarasında qədim yaşayış yeri, Xocalı-Gədəbəy mədəniyyətinə aid olan yaşayış izləri olan əraziləri qeyd etmək olar. Bu arxeoloji abidələri turizm məhsuluna çevirmək üçün turizm marşrutlarına salınması mümkündür. Həmçinin etno-mədəni irsin təqdim olunmasınada, onunla bağlı turizm məhsullarının hazırlanmasında qeyd olunan arxeoloji abidələrdən istifadə etmək mümkündür.

Bölgədə ekoturizmin inkişafında nəticə olaraq qeyd edək ki, bir neçə mərhələdə yanaşmanın təqdim olunması daha optimal hesab edilir. Birinci mərhələdə ekoturizm potensialının müəyyən edilməsi, destinasiyaların seçilməsi və ixtisaslaşma sahələrinin müəyyənləşdirilməsindən ibarətdir. İkinci mərhələdə işğaldan azad olunmuş ərazilərin bərpasından ibarətdir ki, bu da gələcəkdə məskunlaşan əhalinin ilk növbədə məşğulluğun təmin olunmasına yönəldilir. Ekoturizm baxımından ilkin olaraq icma əsaslı turizmin formalaşdırılması məşğulluğun təmin olunmasına imkan verir. Üçüncü mərhələ bərpadan sonrakı inkişaf elementlərin əhatə edir ki, bu da idarəetmənin təkminləşdirilməsindən və TRZ tərkibində klasterlərin hazırlanmasından ibarətdir. Bu mərhələdə TRZ tərkibində zonaların ayrılması, səyahət edənlərin planlaşdırılması, davamlığın idarə olunması, turizm biznesinin inkişafı üçün biznes planlaşdırmanın aparılmasından ibarətdir. Həmçinin, TRZ gəlirliyinin təmin olunmasında yeni turizm məhsullarının yaradılmasına üstünlük veriləcəkdir. Dördüncü mərhələdə TRZ-də turizmin müxtəlif növləri üzrə biznes planların və turizm məhsullarının hazırlanması, onların marketinqi və PR təşkili əsas istiqamət olaraq seçilmiş olur. Eyni zamanda, ekoturizm zonalarının təşkilində aqro-icma, eko-mədəni, eko-sağlamlıq, etno-mədəni turizm məshsullarının formalaşdırılması ərazinin iqtisadi-sosial rentabenliyin təmin etmiş olacaqdır.

Reginonda işğaldan azad olunmuş ərazilərin ekoturizm baxımından təhlili nəticəsində bir neçə məqsədli turizm marşrutlarının hazırlanması gəlmə və daxili turistlərin cəlb olumasına imkan verərdi. Qarabağ və ətraf rayonların turizm potensialın nəzərə alaraq eko-mədəni, mədəni-arxeloji irs, ənənəvi və tarixi irs, təbiət irsin əhatə edən marşrutların təşkili mümkündür. Regionda ekoturizm baxımından aşağıdakı turizm marşrutların təklif etmək olar:

-Əhmədbəyli-Füzuli-Hadrut-Tuğ-Azıx. Bu marşurt üzrə 20-dən çox mədəni-tarixi irs, ekzotik landşaft və təbiət abidələrini təqdim etmək mümkündür. Qeyd olunan marşrutda açıq hava fəaliyyətləri üçün haykinq, macəra, spelo turizm üçün əlverişli imkanlar vardır. Həmçinin, marşrut xəttində olan tarixi-mədəni irs turistlərə təqdim oluna bilər ki, bu da onun cəlbediciliyin artmış olur.

-Əmədbəyli-Daşaltı-Şuşa turizm marşrutu. Bu marşrut xətti boyunca bir tarixi mədəniyyət qoruğu və daxilində onlarla tarixi memarlıq, mədəni irs nümunələrinin olması onun cəlbediciliyini artırmış olur. Marşrut xətti boyunca bir çox təbiət abidələri, tarixi ərazilər, mağaralar və s. mövcuddur ki, bu da onun cəlbediciliyin təmin edir. Eyni zamanda, parafaliq, yamac paraşütü, haykinq, spelo turizm üçün əlverişli şərait vardır. Şuşa şəhərində 17 məhəllənin hamısının özəl tarixi-mədəniyyətinin olması mədəni-dərketmə ekskursiya təyinatlı turların təşkili üçün əlverişlidir. Qeyd olunan marşrutun canlandırılması beynəlxalq və daxili turizm baxımından daha çox cəlbedici olacaqdır. Hazırda Şuşa şəhərinə həftədə dörd dəfə avtobus marşrutlarının planlaşdırılması və ona marağın durmadan artması turizm baxımından əhəmiyyətli istiqamət olacağını qeyd etmək olar.

-Göygöl-Toğana-Kəlbəcər-Zülfüqarlı-İstisu eko-sağlamlıq turizm marşrutu. Marşrut xətti boyunca 20-dən çox təbiət abidəsi, bir çox müalicəvi termal bulaqlar, ekzotik landşaft, təbiət abidələri, mədəni-irs nümunələri turizm baxımından cəlbediciliyi artıran amillərdəndir. Burada haykinq, speloturizm, dağa dırmanma, alpiniz, fotosafari, macəra ekoturizm imkanları vardır. Qeyd olunan ekoturizm marşrutunda hidroloji abidələrdən dərin çay kanyonları, raftinq üçün Tunqunçaydan yararlanmaq imkanları, şəlalələr aktiv turizm üçün ideal ərazilərdən sayılır. Mədəni irs nümunələrindən qoç heykəllərin, 10-a yaxın tarixi-arxeoloji abidələr, memarlıq nümunələrinin olması ekoturizm baxımından cəlbedicliyini artır. Kəlbəcərin oksigenlə zəngin saf-təmiz havası, gölləri, təbii qızıl çay balıqlarının olması marşrutun əsas özəlliklərindən hesab edilir. Bölgədə arıçılıq təsərrüfatların inkişafı, gələcəkdə yerli icmaların qayıtdıqdan sonra təqdim etdiyi ənənəvi irs və regiona məxsus mətbəxt nümunələri turistlərin yeni imkanlardan yararlanmasına səbəb olacaqdır.

Quzanlı-Ağdam-Qərvənd-Şahbulaq-Xaçın su anbarı mədəni təbii irs marşrutu. Marşrut xətti istiqamətində tarixi-memarlıq abidələri, qalalar, müşahidə nöqtələri, qədim kurqanlar və yaşayış yerləri, Gülablı kəndində təbiət abidələri, Ağdam şəhərində məscid və s. turistlərin cəlb olunması üçün əsas resurslardan sayılır. Hazırda Bakı-Ağdam avtobus marşrutu ilə gedən insanların çox olması, gələcəkdə daxili və gəlmə turistlərin bu əraziyə cəlb olunmasında mühüm rol oynayacaqdır. Tarixi-mədəni irslə yanaşı, ekzotik landşaft, təbiət

abidələri, Xaçın su anbarının yaxınlığındakı təbiət abidələri və müşahidə məntəqəsindən ətraf ərazilərin müşahidə olunması marşrutun cəlbedici amillərindən sayılır.

Tədqiqatın ikinci istiqaməti olaraq bölgənin balneoloji-iqlim resurslarının öyrənilməsi, coğrafi yayılmasında fərqlərin olmasına görə sağlamlıq turizmin formalaşmasında rolu vardır. Ölkədə sağlamlıq turizm üzrə əsas müştəri seqmenti ölkə vətəndaşları olaraq qalır. Belə ki, ölkədə müalicə-sağlamlıq xidmətlərindən istifadə edənlərin sayı 200 min nəfərə yaxındır ki, bununda 63,9 min nəfəri xarici turistlərdən ibarətdir. Müalicə-sağlamlıq turizm xidmətlərindən istifadə edənlərin 68%-i ölkə vətəndaşlarından ibarətdir.

İşğaldan azad olunmuş ərazilərdə sağlamlıq turizm ehtiyatları növ müxtəlifliyi və zənginliyi ilə seçilir. Təbii şəraiti və zəngin ehtiyatları, bol günəş istisi, mineral su ehtiyatları turizm, müalicəvi bitkiləri kurort-sağlamlıq müəssisələrinin yaradılması üçün əlverişli sayılır. Bunlardan müalicəvi-mineral sular daha çox dağlıq və dağətəyi ərazilərdə daha çox cəmlənmişdir. Xüsusilə Kəlbəcər, Laçın müalicəvi sularla daha yaxşı təmin olunmuşdur. Şuşa və Zəngilanda müalicəvi su mənbələrinə rast gəlinir.

Regionda İstisu, Minkənd, Tutqunçay kimi mineral bulaqlar, iqlim-balneoloji şərait, dağ meşələri kurort-rekreasiya məqsədləri üçün istifadə edilə bilər. Rayonda termal suların temperaturu 60-100ºC-dir. Qarabağ vulkanik yaylasında toplanan mineral su ehtiyatları kimyəvi tərkibinin müxtəlifliyinə görə fərqlənirlər. Azərbaycanda olan mineral suların ümumi ehtiyatının 33%-i Kəlbəcər, Laçın rayonlarının payına düşür. Bu rayonlarda mineral suların ümumi ehtiyatı 7393 $m^3$/gün təşkil edir, bunun isə 42%-i Laçının, 58%-i Kəlbəcərin payına düşür. Yalnız Kəlbəcər rayonun Tərtər çayının hövzəsində 400-dən artıq mineral su yataqları var.

Bunlardan İstisu mineral bulaqları 1138-cu ildə güclü zəlzələ zamanı yerin qabarması, çatlaması nəticəsində əmələ gəlib. Bulağın suyu hipertermal, karbon qazlı, hidrokarbonatlı-xloridli-sulfatlı-natriumludur. İstisu mineral bulaqları istifadə edilən 12 bulaqdan ibarətdir. Mineral su mənbələrinin iri yataqları Yuxarı və Aşağı İstisu, Turxun, Keşdək, Qoturlu (Kəlbəcər), Minkənd soyuq su tipli mineral bulağı (Laçın) və aiddir. Bu bulaqların potensial ehtiyatı, yerləşdiyi ərazinin təbiətinin cəlbediciliyi kurort-müalicə

kompleksinin yaradılması üçün əlverişli təbii amillərdir.

İşğaldan azad olunmuş ərazilərin balneoloji-iqlim ehtiyatları da kurort-sağlamlıq komplekslərinin təşkilinə imkan verir. Havanın orta sutkalıq temperaturu 10ºC-dən yuxarı olan günlərin sayı düzənliklərdə 210, orta dağlıqda 190, yüksək dağlıqda 50-120 gün arasında dəyişir. İllik günəş radiasiyası düzənlik və orta dağlıq zonalarda 132-136 kkal/sm²-dan başlayaraq yüksək dağlıqda 140-144 kkal/sm²-dək artır. Orta dağlıq ərazilərdə 300-600 mm, yüksək dağlıq zonada 700-800 mm yağıntı düşür.

Bölgədə iqlimlə müalicənin tətbiq edilməsi üçün ən əlverşli şərait Şuşa-Kəlbəcər rayonundadır. Şuşanın iqlimi, Turşsu mineral suyu iqlim-balneoloji kurort üçün çox əlverişlidir. Göygöldə olduğu kimi, Şuşada da yay aylarında sərin və komfort şəraitli havalar üstünlük təşkil edir. Yay kurort mövsümündə Şuşada günəşli havaların təkrarlanması mayda 36 %, iyunda 48 %, iyulda 52 %, avqustda 62 %, sentyabrda isə 42 %-dir. Deməli, Şuşada istirahət və müalicə üçün ən əlverişli vaxt iyun – avqust aylarıdır.

Şuşanın iqlimi qışda nisbətən soyuq (-3°, +4°), yayda sərin, günəşli (+18°) olur. Orta aylıq hərarət yanvar ayında -2,2 dərəcə, iyun ayında +13,3 dərəcə arasında dəyişir. Nisbi rütubətlilik orta hesabla 70-80 faiz arasında olur. Orta illik yağıntı 630-660 millimetrdir. Ən çox yağıntı yay aylarında müşahidə edilir. Şuşada əsən küləklərin sürəti orta hesabla 4-6 metr-saniyə olur. Çox nadir hallarda, təxminən ildə 4-6 dəfə nisbətən güclü (12 metr-saniyə) küləklərə təsadüf edilir. Dumanlı günlərin sayı orta hesabla ildə 80-dir.

Şuşa kurortunun ərazisi dekorativ və meyvə ağacları ilə zəngindir. Kurort amilləri kompleksinin xüsusiyyətlərinə, havanın saflığına, təmizliyinə və müalicəvi əhəmiyyətinə görə Şuşa kurortu İsveçrənin dünya üzrə məşhur Davos kurortu ilə müqayisə edilə bilər. Şuşa-Turşsu rekreasiya zonasının əlverişli mikroiqlim göstəriciləri, zəngin müalicəvi bulaqları ürək-damar, tənəffüs yolları, həmçinin mineral sularla mədə-bağırsaq, qaraciyər, öd yolları və uroloji xəstəliklərinin müalicəsi üçün əlverişli sayılır. Kurort zonasında yüksək debitli Turşsu, Şırlan, İsabulağı, Zamanpəyəsi, Daşaltı bulaqları vardır. Bunlardan müalicəvi xüsusiyyətləri təsdiq olunan Turşsu və Şırlan bulaqlarıdır. Turşsu mineral suyun tərkibində dəmirin olması II-anemiyalı xəstələrin də burada müalicə olunmasına imkan verir. Turşsuda, Şirlanda çıxan

mineral sular böyük müalicəvi əhəmiyyətə malik olub, mədə-bağırsaq, qaraciyər-öd kisəsi xəstəliklərində və tərkibində kifayət qədər dəmir olduğuna görə qan azlığında müvəffəqiyyətlə tətbiq edilə bilər.

Yay müalicə və istirahət dövrü (iyun – avqust) dağ – çəmən landşaftı üstünlük təşkil edən Laçın – Minkənd rayonunda daha quru və günəşli keçir. Minkənd ətraflarında yay daha günəşli və az yağmurlu olmasına görə Şuşadan da üstündür. Sakit, şaxtalı, qarlı qış ayları isə Kislovodskinin qış mövsümünə çox oxşayır. Aydın, şaxtalı qış günlərində Minkənd mineral bulaqlarından fəvvarə kimi qalxan buxar topaları cəlbedici amil kimi qeyd oluna bilər. Minkənd və onun ətrafları əlverişli iqlim və balneoloji amillər əsasında Azərbaycanın ən yaxşı iqlim – balneoloji kurort formalaşması və inkişaf perspektivləri vardır.

Bölgənin mikroiqlim şəraitinin təhlili göstərir ki, balneoloji-iqlim kurortlarının təşkilinə əlverişli imkanlar vardır. Şuşa, Kəlbəcər, Laçın rayonlarında dağ iqlim və iqlim-balneoloji kurortlar şəbəkəsinin genişləndirilməsi perspektivləri mikroiqlim və zəngin balneoloji resurslara əsaslana bilər. Qarabağ və Şərqi Zəngəzur regionunda sağlamlıq turizminin resurslarından istifadənin çox kriteriyalı qərar vermə analizində Kəlbəcər-İstisu-Zülfüqarlı, Minkənd-Əhmədli, destinasiyalarında yüksək, Korçabulaq-Şəlvə, Turşsu-Şuşa zonasında əlverişli və orta əlverişli destinasiya kimi qiymətləndirilmişdir.

Yay müalicə və istirahət dövrü (iyun – avqust) dağ – çəmən landşaftı üstünlük təşkil edən Laçın–Əhmədli kurort zonasında daha quru və günəşli keçir. Minkənd ətraflarında yay daha günəşli və az yağmurlu olmasına görə Şuşadan da üstündür. Sakit şaxtalı, qarlı qış ayları isə Kislovodskinin qış mövsümünə çox oxşayır. Aydın, şaxtalı qış günlərində Minkənd mineral bulaqlarından fəvvarə kimi qalxan buxar topaları buraya ilk dəfə gələnlərə xoş təsir bağışlayır. Minkənd və onun ətrafları əlverişli iqlim və balneoloji amillər əsasında Azərbaycanın ən yaxşı iqlim – balneoloji kurortu kimi inkişaf etdirilməyə layiqdir.

Komfort və sərin hava şəraiti ilə bərabər zona gözəl mənzərəli subalp və alp çəmənləri, sıra dağları, sərin bulaqları ilə tanınır. Hündürlük amili havanın təmizliyini, düz günəş radiasiyasının yüksək gərginliyini, ultrabənövşəyi şüaların bolluğunu təmin edir. İqlim şəraitinin təhlili göstərir ki, Kəlbəcər, Laçın, Şuşada iqlim-balneoloji kurortu yaradılması üçün

bütün təbii imkanlar vardır. Balneoloji-iqlim potensialı ilə seçilən ərazilərin ətrafında geniş meşə və dağ-çəmən landşaftının yayılması, təbiət abidələrinin mövcudluğu sağlamlıq turizm məqsədilə istifadə olunmasına şərait yaradır.

Kəlbəcər və Laçın inzibati rayonlarında yerləşən turizm-rekreasiya əhəmiyyətli dağ meşələridən ibarətdir. Regionda müalicəvi əhəmiyyətli bitkilərin geniş yayılması və areallarının şaquli qurşaqlıq üzrə paylanması fitomülalicəvi turizmin təşkilinə imkan verir. Eyni zamanda, fitoçayların istehsalı üçün əlverişli şəriat vardır.

Regionda rekreasiya sağlamlıq resurslarından istifadə olunmasında dövlətin dəstəyi əsas olmaqla yerli və xarici investorların cəlb olunması vacibdir. Belə ki, dövlət dəstəyi maliyyə-investiya, sağlamlıq müəssisələrinin təşkili (hazırda İstisu sanatoriyasının bərpası aparılır), sahibkarlara iqtisadi stimulların yaradılması, alt infrastrukturun tikintisi ilə birbaşa bağlıdır.

Sağlamlıq resurslarından istifadə olunmasında maraqlı tərəflərin iştirakının təmin olunması bu sahədə iqtisadi fəallığın artmasına səbəb olacaqdır. Xüsusilə, sahibkarlıq subyektlərinin, həmkarlar təşkilatının, icmaların sağlamlıq turizmdə iştirakının təmini rəqabətli inkişafın formalaşmasına səbəb olacaqdır. Sağlamlıq turizmdə rəqabət qabiliyyətinin artırılmasında rəqəmsal marketinqin tətbiqi, ixtisaslaşdırılmış destinasiyaların yaranması və sahibkarlıq subyektlərinin iştirakının təmin olunması vacibdir.

İşğaldan azad olunmuş ərazilərdə sağlamlıq və kurort-turizminin zəngin resurslar vardır ki, bu da sağlamlıq turizmin termal, SPA-Welles, kurort-sağlamlıq, iqlim-baleoloji, fito sağlamlıq imkanları yaradır. Regionda rəqabət qabiliyyətli sağlamlıq turizminin inkişafında ixtisaslaşdırılmış destinasiyaların formalaşmasını zəruri edir. Apardığımız təhlilərdən aydın olur ki, bölgədə sağlamlıq və balneoloji iqlim resurslarının daha çox cəmləndiyi Kəlbəcər, Laçın rayonlarını əhatə edir ki, bu da kompleks sağlamlıq-müalicə xidmətlərinin təşkilinə imkan verir. Eyni zamanda, qeyd olunan rayonlarda mineral müalicəvi sularla zəngin olan yaşayış məntəqələrinin ətrafında infrastruktur qurulduqdan sonra sağlamlıq turizmi destinasiyalarının daxilində kurort-istirahət, dağ iqlim kurortlarının formalaşmasına səbəb olacaqdır. Beynəlxalq təcrübəni nəzərə almaqla kompleks-sağlamlıq müalicə, dağ-iqlim-

balneoloji, kurort-istirahət, ekoloji turizm sahələrinin inkişafına təkan verəcəkdir. Xüsusilə, Çexiya modelində olduğu kimi balneoloji-iqlim və termal mənbələrinə əsaslanan geniş əhatəli kurort-sağlamlıq xidmətləri təşkil oluna bilər. Kəlbəcər rayonun İstisu, Zülfüqarlı, Tutqun, Laçın rayonun Minkənd, Şuşa rayonun Daşaltı kəndlərində mövcud iqlim-balneoloji, müalicəvi mineral sularının bazasında sağlamlıq turizm destinasiyaları təşkil olunmalıdır.

Layihə üzrə tədiqat işində Şuşa şəhərinin mədəni və etno-mədəni turizm imkanlarının beynəlxalq turizmdə təqdim edilməsi və kreativ turizm sənayesinin mərkəzi kimi təqdim olunması öyrənilmişdir. Şuşa şəhərinin mədəniyyət və etno-mədəni irsin turizm məhsuluna çevrilməsində mövcud təhlillər onların cəlbedicilik amillərin, turistik baxımdan özəlliklərin, fərqli yanaşma tərzin, yeni mədəniyyətlərlə tanışlığın əks etdirmiş olur. Xüsusilə istirahət-sağlamlıq məqsədli səyahətlərin böyüməsi fonunda mədəni irsin dərketmə turizm məhsulu kimi təqdim olunması beynəlxalq turizm bazarında geniş yayılmışdır. Mədəni resurslara tələbatın artması turistin istəklərinin obyektləri və vasitələrinin iqtisadi inkişaf kriteriyalarını artırmışdır.

Şuşa şəhərinin mədəni, etno-mədəni və eko-mədəni turizm mərkəzi kimi formalaşmasında maraqlı tərəflərin analizi göstərir ki, dövlət orqanları ilə yanaşı, sahibkarlıq subyektləri, icma nümayəndələri və QHT iştirakı təmin edilə bilər. Bu baxımdan mövcud resurslara əsaslanan innovativ yanaşmalar aşağıdakı diferensial asıllıqları özündə birləşdirir:

1.Resursların qiymətləndirilməsi və turizm məhsuluna çevrilməsi imkanları. Burada mədəni-tarixi, etno-mədəni, sənətkarlıq, eko-mədəni irs resurslarından istifadə olunmasına əsaslana bilər. Şuşa şəhərinin əsas tarixi-mədəni irs resurslarına 100-dən çox tarixi bina, 17 qədim məhəllələri xüsusilə qeyd etmək olar. Bu tarixi-mədəni irs mədəni-dərketmə turizmin inkişafında əhəmiyyətli rolu vardır ki, bunun da əsas hissəsi mövcud turizm marşrutlarına salınmışdır. Şəhərin etno-mədəni irsinə 6 qarabağ memarlığın əks etdirən karvansaray, 17 məscid, 2 mədrəsə, ənənəvi musiqi sənətin qeyd etmək olar. Şuşa şəhəri toxuculuq, xalçaçılıq, tar, saz və digər musiqi alətlərinin hazırlanması, dülgərlik sənəti daha çox inkişaf etmişdir. İşğaldan sonra kreativ sənayenin inkişafında qeyd olunan sənətkarlıq mərkəzlərinin bərpası onların turizm məhsuluna çevrilməsinə imkan verir. Şəhərin eko-mədəni irsinə ərazinin eyni

adlı plato üzərində yerləşməsi, Çıdır düzü, Daşaltı və "Xan" mağaraları, Topxana meşəsi, İsa bulağı, "Çətirli" şəlalə ətraf mənzərələri görmək üçün müşahidə nöqtələrinin olması, yamac paraşütü imkanların qeyd etmək olar.

2.Müxtəlif turizm növlərinin inkişaf imkanları. Kiçik tarixi şəhərlər mədəni-dərketmə, hadisə, "qurman " turizmi, icma əsaslı turizm, ənənəvi sənərkarlıqla bağlı olan kreativ turizm, açıq hava turizm fəaliyyətlərinin inkişafı üçün əlverişli məkana sahib olurlar. Şuşa şəhərində tədbir turizminin inkişafı üçün ölkənin əsas mədəni mərkəzlərindən birinə çevrilməkdədir. Burada keçirlən "Xarı bülbül", "Vaqif poeziya günləri", "Kulinariya" festivalları şəhərin maddi və qeyri-maddi irsinin turizm məhsulu kimi təqdim olunmasına imkan verir. Şəhərdə kreativ turizm sənayesinin inkişafında bu festivallara cəlb olunan beynəlxalq miqyasda tanınan sənət adamlarının, məşhur kinorejisor, senaristləri, həmçinin blogerlərin dəvət olunması onun cəlbediciliyin artırmış olardı. Onu da qeyd edək ki, UNESKO-nun qeyri-maddi irs siyahısına salınmış "Qarabağ atları ilə Çovqan oyunu", "Muğam sənəti və üçlük", "Azərbaycan xalçaçılıq sənəti" cəlbedici kreativ turizmin sənayesi üçün hədəf kütləsinə yönəldilə bilər.

3.Şuşa şəhərində mədəni və eko-mədəni turizm klasterlərinin formalaşdırılması. Kiçik tarixi şəhər üçün səciyyəvi olan turizm növlərinin inkişafı mədəni və etno-mədəni resurslara əsaslansa da, Şuşa şəhəri üçün xarakterik olan eko-etno-mədəni irsin birgə istifadə olunması onun cəlbediciliyin artırmış olur. Şuşa şəhərinin etno-mədəni və eko-mədəni turizm klsaterlərinin formalaşmasında innovativ marketinq, "kreativ şəhər və iqtisadiyyat", "turizm srartupları" və "yerli səfirlər" konseptinin birgə istifadə olunması onun rəqabət qabiliyyətli məhsulların formalaşmasına səbəb olardı. İnnovativ marketinq fəaliyyəti şəhərin tarixi, mədəniyyəti və kreait sənayesinin inkişafı birgə təqdim olunmalıdır. Şəhərin yerli turistlər üçün cəlbediciliyin nəzərə almaqla kütləvi tədbilərin beynəlmiləşdirilməsi, müxtəlif halmark və kiçik tədbirlərin müxtəlif sənət adamları və ya kreativ sənayenin nümayəndələri ilə keçirilməsi və onun SMM daha uğurlu sayılır.

Şuşa şəhərində "Yerli səfirlər" konseptinin təqdim olunması gələn turistlər üçün dəqiq məlumatların verilməsinə, etno-mədəni irsin daha dolğun təqdim olunmasına imkan

verir. Eyni zamanda, geriyə qayıdan əhalinin bu sahədə təlimlərə cəlb olunması, bələdçilərin hazırlanması icma əsaslı turizmin inkişafına təkan verə bilər. "Yerli səfirlər" konsepti Şuşa şəhərinin tarixinin, mədəniyyətinin, maddi və qeyri-maddi irsinin turizm məhsuluna çevrilməsində əlavə imkanlar yaradır. Şuşa şəhəri və ətraf ərazilərin gələcəkdə formalaşmış etno-mədəni, eko-mədəni turizm klasterinə çevrilməsi peşəkar bələdçilərə tələbatı artıracaqdır ki, bu da "Yerli səfirlər" konseptinin aktuallığın artıracaqdır.

Azərbaycan Dövlət Turizm Agentliyi işğaldan azad olunmuş ərazilərin 2030-cu ilə qədər iqtisadi prioritetlərini müəyyən etmiş və bu prioritetlərə müvafiq turizm strategiyası hazırlanmışdır. Bu turizm strategiyasında əsas diqqət isə Qarabağ və Şərqi Zəngəzur ərazilərinə yönəlmişdir. Strategiyada 2 əsas yanaşma müəyyən olunmuşdur ki, bunlarada klaster və dəhlizlər üzrə yanaşma aiddir. Hər iki strategiyada TRZ yaradılması və onların daxilində klasterlərin təşkilinə üstünlük verilmişdir.

Onu da qeyd edək ki, Şuşa şəhəri üzrə klaster yanaşmalarının tətbiqi və "yaşıl dəhlizlərin" şəhərlər üzrə üç istiqamətdə əlaqələndirilməsi daha çox effektiv sayıla bilər. Bu dəhlizlərdən Füzuli-Hadrur-Şuşa, "Zəfər yolu" marşrutu və Zəngilan-Laçın-Şuşa turizm marşrutları daha cəlbedici olacaqdır. Şuşada yaradılan "yaşıl dəhlizlər" vasitəsilə həm şəhərin ekoloji təmizliyinin qorunmasına, həm də onun turizm şəhəri kimi cəlbediciliyinin artırılmasına nail olmaq mümkündür. Nəzərdə tutulan yanaşmaya görə Şuşa şəhərinin təxminən üçdə bir hissəsi yaşıllıq zonalarından təşkil olunmalıdır. Turizm layihələrinin həyata keçirilməsinə isə Dövlət Turizm Agentliyinin konsepsiyası çərçivəsində turizm marşrutlarının yaradılmasından başlanılır.

Şuşa şəhərinin inkişafında beynəlxalq təcrübələrin tətbiq olunması üçün əlverişli şərait mövcuddur. Buna ən bariz nümunə kimi Avropa İttifaqının "Kreativ şəhər və regionlar" layihəsini göstərmək olar. Turizm mərkəzi kimi formalaşmaqda paytaxt və iri şəhərlər kimi kiçik şəhərlərində müəyyən dərəcədə perspektivləri mövcuddur. Qeyd olunan layihə də məhz kiçik şəhərlərin turizm əhəmiyyətini vurğulamaq məqsədini daşıyırdı. Layihə Aİ-nin maliyyə vəsaiti hesabına Aİ və "Şərq Tərəfdaşlığı" "Mədəniyyət və kreativlik" konsepsiyası çərçivəsində həyata keçirilmişdir. "Şərq Tərəfdaşlığı" dedikdə layihədə iştirak

| | |
|---|---|
| | edən regionun 6 ölkəsi nəzərdə tutulur-Azərbaycan(Şəmkir şəhəri timsalında), Gürcüstan(Msxeta-Mtianeti regionu), Ukrayna(Kosov şəhəri), Belarusiya(Svetloqorsk şəhəri), Moldova(Orhei şəhəri), Ermənistan(Sisian şəhəri).<br>“Şərq Tərəfdaşlığı” çərcivəsində kiçik tarixi şəhərlər və “mədəniyyət və kreativlik” konsepsiyasına Şuşa şəhərinin əlavə edilməsi turizm potensialından səmərəli istifadə olunmasına imkan verir. Aİ kiçik tarixi şəhərlər konseptinə Şuşa şəhərinin mədəni və etno-mədəni irs potensialı baxımından uyğun gəlir. Şuşa şəhərinin tarixi, mədəniyyəti, ənənəvi sənətkarlığı, eko-mədəni və hadisə turizm imkanlarını əhatə edən turizm məhsullarının Avropa seqmentinə təqdim olunması üçün “Kiçik tarixi şəhərlər” və “Mədəniyyət və kreativlik” dəhlizlərinə salınması ilə mümkündür. Onu da qeyd edək, Avropadakı Azərbaycan diasporunun Şuşa şəhərini görmək və onun mədəniyyəti, etno-mədəni irsi ilə tanış olması əsas hədəf kütləyə istiqamətlənən məhsulların təqdim olunmasına imkan verir.<br>Şuşa şəhərində “Kreativ şəhər” layihəsinin tətbiq olunması şəhər üçün onun mədəni irsinin təbliğinə, kreativ səneyenin təşkilinə, yeni iş yerlərinin açılmasına, innovativ biznes modellərinin yaradılmasına, həm daxili, həm də beynəlxalq turizmin inkişafına yol açmaqda geniş perspektiv vəd edir. Buna görə də Şuşa şəhərində kreativ sənayenin inkişafına təkan verən festivalların keçirilməsi, müxtəlif sənət nümayəndələrinin cəlb olunması, treyniq və təlimlərin təşkili, ev müzeylərinə əsaslanan maarifləndirici tədbirlərin təşkil olunması cəlbedici turizm perspektivlərin artırmış olur. Şuşa şəhərinə tətbiq oluna biləcək digər beynəlxalq təcrübə kimi isə Avropa Şurasının “Kiyev təşəbbüsü regional proqramı” konsepsiyası əsasında reallaşan “ Tarixi şəhərlərdə mədəni irsin bərpası” layihəsinində iştirakı təmin etmək olar. Layihənin məqsədinə uyğun olaraq Şuşa şəhərində sosial-iqtisadi inkişaf üçün tarixi abidələrin, təbii şəraitin, milli dəyərlərin təbliğinə əsaslanan tədbirlərin həyata keçirilməsi ilə onu beynəlxalq turizm mərkəzinə çevirmək mümkündür. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün, faizlə qiymətləndirməli) |
| | (burada doldurmalı)<br>Keçın müddət ərzində tədqiat regionuna ezamiyyət təşkil olunmuş, yerində təhlil və analizlər |

| | |
|---|---|
| | aparılmış və onun elmi nəticələri məqalə kimi çap etdilmişdir. Eyni zamanda, layihə üzrə elmi tədqiqat işin 50% yerinə yetirilmişdir. |
| 3 | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | (burada doldurmalı)<br>-Tədiqat ərazisində təbii, mədəni, tarixi-arxeoloji, eko-mədəni, etno-mədəni irs resurslarının zənginliyi turizmin müxtəlif növlərinin inkişafı üçün əlverişli şərait yaradır. Bu resursların bazasında eko-mədəni və etno-mədəni turizm klasterlərinin formalaşması mükündür.<br>-Bölgədə təbii və mədəni irsin çoxkriteriyalı qiymətləndirilməsi əsasında yüksək, orta və aşağ turizm əhəmiyyətli olan regionlar müəyyən edilmişdir. Belə ki, turizmin müxtəlif növləri üçün seçilən ərazilərə Kəlbəcər rayonunda İstisu, Zülfüqarlı, Dəmirçidam, Vəng, Sultan Heydər, Laçın rayonunda Minkənd, Əhmədli, Aşağı Fərcan, Zəngilan rayonunda Qaragöl və ətraf ərazilər, Zəngilan şəhərinin ətrafı, Qubadlı rayonunda Göyərçinli, Həkəri, Bərgüşad çaylarının sahilləri, Xocavənd rayonunda Tuğ, Hadrut, Azıx, Tağlar, Ağbulaq, Ağdam rayonunda Şahbulaq və Xındırıstan kəndi, Tərtər rayonunda Suqovuşan və ətraf ərazilər, Cəbrayıl rayonunda Dağ Tumas kəndi və ətraf ərazilər, Şuşa-Daşaltı ixtisaslaşmış turizm klasterlərinin təşkili istiqamətləri müəyyən edilmişdir.<br>-Yeni formalaşacaq TRZ və onun daxilindəki turizm klasterlərinin ixtisaslaşmasında Kəlbəcər-Laçın rayonları ərazisində sağlamlıq, eko-sağlamlıq, fito-sağlamlıq, qış turizmi, açıq hava turizm fəaliyyətləri, ekoturizmin təşkili üçün daha əlverişli olması və rəqabət qabiliyyətli turizm məhsullarının formalaşmasına imakn verməsinə əsaslandırılmışdır.<br>-Regionda turizmin ərazi təşkilində sağlamlıq-termal, eko-sağlamlıq, istirahət-əyləncə, mədəni və etno-mədəni, tədbir, eko-aqroturizm və açıq hava turizm fəaliyyətlərinin təşkili üçün əlverişli olan ərazilərin zonallaşdırılması aparılmışdır.<br>- İşğaldan azad olunmuş ərazilərdə ekoloji və eko-mədəni və tarixi-mədəni irs resursların nəzərə almaqla turizm marşrutları təklif olunmuş və əsaslandırılmışdır.<br>-Şuşa şəhəri, Hadrut qəsəbəsi, Azıx, Tuğ, Tağlar, Vəng kəndləri, Şahbulaq qalası və ətraf ərazilərdə olan arxeoloji abidələrin mədəni, etno-mədəni və eko-mədəni turizm klasteri |

| | |
|---|---|
| | kimi formalaşması, uyğun turizm məhsullarının hazırlanması, beynəlxalq turizm marşrutlarına daxil edilməsi nəticə olaraq müəyyən edilmişdir.<br>-Şuşanın "kiçik tarixi şəhərlər" və "mədəni kreativ sənaye" mərkəzi kimi klasterin formalaşması mədəni və etno-mədəni dəhlizlərin keçməsinin təmin olunması, şəhərin Aİ mədəni turizm sahəsində mövcud layihələrində iştirakının təmin olunması vacibdir. Şuşa şəhərində kreativ sənayenin inkişafı üçün Yuxarı və Aşağı məhəllələrində sənətkarlıq və yaradıcılıq mərkəzlərinin yaradılması, hadisə turizminin inkişafı və onun beynəlxalq səviyyədə keçirilməsində dövlət orqanlarının maraqlı tərəf kimi iştirakı, təşkilatçılığı turizm şirkətlərinin bu sahədə yeni məhsullar hazırlayaraq müxtəlif turizm bazarlarında təqdim etməsi və cəlbediciliyin artırılması mümkündür.<br>-Beynəlxalq təcrübəyə əsaslanmaqla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm klasterlərinin formalaşmasında "yumşaq" turizm modeli əsaslandırılmış və davamlı turizmin təşkili üçün ətraf mühitlə tamlıq təşkil edən turizmin inkişafına önəm verilməsi müəyyənləşdirilmişdir. |
| **4** | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | *(burada doldurmalı)*<br>Layihənin yerinə yetirilməsində çöl tədqiqat, müqayisə, riyazi statistika və intraktiv xəritələrin tərtibi üsulundan istifadə olunmuşdur. |
| **5** | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |
| | *(burada doldurmalı)*<br>Keçən müddət ərzində layihə üzrə iki elmi məqalə çap olunmuşdur. Bir elmi məqalə xaricdə olmaqla indeksli jurnalda cap olunmuşdur. AMEA təbii resurs jurnalında ikinci məqalə ingilis dilində cap edilmişdir.<br>1. V.S.Dargahov, S.A.Talibov, Q.V.Mammadov, R.İ.Ahmadov Small historical towns and the opportunities for the creative cultural tourism products in Azerbaijan (the case of Shusha city)// Proceedings of the Azerbaijan Geographical Society GEOGRAPHY AND NATURAL RESOURCES, 93-101. http://journal.geonatres.az/<br>2. V.S.Dargahov, Q.V.Mammadov, R.İ.Ahmadov, İ.F.Nuriyeva Prospects of using the tourism potential of the liberated territories from the point of view of ecotourism// Journ. Geol. Geograph. Geoecology, 32(2), 224-232. https://doi.org/10.15421/11233801 |
| **6** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)*<br>--- |
| **7** | Layihə üzrə ezamiyyətlər |

| | |
|---|---|
| | *(burada doldurmalı)*<br>Layihə üzrə Cəbrayıl, Füzuli, Qubadlı rayonları və Şuşa şəhərinə ezamiyyətlər təşkil olunmuşdur. Ezamiyyətlər iyul, avqust, sentyabr ayların əhatə etmişdir. Ezamiyyət müddətində rayonlarda rayonların təbii və mədəni irs nümunələri, onların müasir vəziyyəti, erməni vandalizminə məruz qalmış tarixi-mədəniyyət abidələri haqqında məlumat toplanmışdır. |
| **8** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | *(burada doldurmalı)*<br>--- |
| **9** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)*<br>Dövlət Turizm Agentliyinin işğaldan azad olunmuş ərazilərdə TRZ təşkili və qiymətləndirilməsi tədbirlərində iştirak edilmişdir. |
| **10** | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | *(burada doldurmalı)*<br>Coğrafiya fakültəsinin elmi seminarında təqdimat edilmişdir. |
| **11** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | *(burada doldurmalı)*<br>--- |
| **12** | Yerli həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>DTA, ETSN, Azərbaycan Ekoturizm Assosasiyası, Şuşa Dövlət Mədəniyyət Qoruğu, yerli bələdiyyələrə əlaqələr təşkil olunmuş və informasiya mübadiləsi aparılmış, məlumatlar götürülmüşdür. |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | *(burada doldurmalı)*<br>--- |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |
| | *(burada doldurmalı)*<br>--- |
| **15** | Sərgilərdə iştirak |
| | *(burada doldurmalı)*<br>--- |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | *(burada doldurmalı)*<br>--- |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | *(burada doldurmalı)*<br>---- |

**Layihə rəhbərinin imzası ____________________Əhmədov Rəşad İsmayıl oğlu**

**Tarix** ____________________

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.